1_Layout 1 24.05.2025 18:08 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 10 (698)

30 may 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## PREZİDENT İLHAM ƏLİYEV TDT-NİN DAXİLİ İŞLƏR NAZİRLƏRİNİN İKİNCİ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstan Respublikasının daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.



Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü Azərbaycanda keçirilir. Bu, çox sevindirici haldır. Əminəm ki, belə görüşlərin davamı olacaq.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilmişdir. Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək.

Təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları göz önündədir. Biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır. Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq.

Bizim ölkələrimizdə əhali artır. Azərbaycana gəldikdə, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə bizim əhalimiz təqribən 7 milyon idi, indi 10 milyonu ötüb. Bütün üzv ölkələrdə buna oxşar dinamika müşahidə olunur. Əhalimiz gəncdir, dinamikdir, öz tarixi köklərinə bağlıdır. Ona görə biz təşkilat çərçivəsində iqtisadiyyat, nəqliyyat, enerji məsələləri ilə yanaşı, mütləq ortaq köklərimiz, ortaq tariximiz haqqında geniş danışmalıyıq.

Tarixdə müxtəlif məqamlar olub. Biz müəyyən dövr ərzində bizdən asılı olmayan səbəblərə görə bir-birimizdən ayrı düşmüşdük. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi bizi yenə də bir araya gətirdi. Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir.

O ki qaldı, daxili işlər orqanlarının birgə fəaliyyətinə təbii ki, buna böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni heç kim bundan sığortalı deyil. Ona görə daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir. Təşkilata üzv ölkələrin daxili işlər orqanlarının bir araya gəlməsi, müntəzəm olaraq görüşlərin keçirilməsi, fikir mübadiləsi, təcrübə mübadiləsi, informasiya mübadiləsi aparılması böyük önəm daşıyır.

Təbii ki, bizim əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir. Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir. Yenə də deyirəm, bunlar üçün bütün imkanlar var. Əgər olmasaydı, mən bu barədə danışmazdım.

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrin xalqlarına öz hörmətimi bildirirəm və Sizə uğurlu iş və gözəl nəticələr arzulayıram.

Sonra çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev dedi:

- Əvvəlcə, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, bu, daxili işlər nazirlərimizin ikinci görüşüdür. Birincisi keçən il Qırğızıstanda olub. Siz qeyd etdiniz ki, hörmətli nazirlərimiz görüşürlər, onlar daha çox mahiyyətə diqqət yetirirlər. Bu gündə Kommünike hazırlanıb. Bundan sonra da belə görüşlər keçiriləcək və orada daxili işlər nazirlərinin fəaliyyətinin əsas istiqamətlərini ehtiva edən Kommünike qəbul olunacaq. Bu, banditizm, terrorizm, cinayətkarlıq və sairə ilə mübarizə daxil olmaqla nazirlərimizin fəaliyyətinin bütün istiqamətlərini əhatə edir.

İki gün əvvəl vaxtilə Sizin təşəbbüskarı olduğunuz qeyri-rəsmi Zirvə görüşümüz keçirildi. O mahiyyət etibarilə qeyri-rəsmi deyil, daha çox rəsmi idi. Orada da hüquq-mühafizə orqanlarımızın işindən bəhs edildi. Siz də qeyd etdiniz ki, keçən il ilk dəfə Şuşada Ali məhkəmə instansiyalarımızın görüşü oldu. Ali məhkəmələrin sədrləri bu yaxınlarda - iki həftə əvvəl Antalyada yenidən toplaşdılar və nizamnamə qəbul etdilər. Orada da bütün fəaliyyət istiqamətləri göstərilib. Bizdə artıq baş prokurorlar, notarial orqanlar, ədliyyə nazirlərinin platformaları yaradılıb, keçən il ədliyyə nazirləri də Astanada bir araya gəldilər.

Bir sözlə, bütün hüquq-mühafizə bloku institutlaşmaya başlayıb, artıq ilk addımlar atılır. Sizin parlamentdəki inaqurasiya nitqinizdə qısaca qeyd etdiyiniz kimi, hamı bunu dəstəkləyir. İndi Sizin dediyiniz kimi, bizim təşkilat daha güclü ola bilər. Biz həqiqətən nadir beynəlxalq təşkilatıq. Siz qeyd etdiyiniz kimi, 15 il əvvəl qəbul edilən Naxçıvan Sazişində deyilir ki, bizi məhz tarixi köklər, mədəniyyətimiz, dil, din birləşdirir. Çünki başqa belə bir təşkilat yoxdur və bizim hamımızın vəzifəsi yaradılmış platformalarla onu gücləndirməkdir.

**DİN-in Mətbuat xidməti**

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

**Mayın 23-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü keçirilib.**




Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyəti Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra Zəfər parkına gələn qonaqlar Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbəsini simvolizə edən Zəfər abidəsi önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını ifadə ediblər.

Görüşdə Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstan Respublikası daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

İclası açıq elan edən Vilayət Eyvazov iştirakçıları səmimiyyətlə salamlayaraq təşkilata üzv dövlətlərin xalqlarını sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, türk dövlətləri liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində ölkələrarası dostluq və qardaşlıq münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, strateji tərəfdaşlıq xarakteri daşıdığını, dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq dinamik inkişaf etdiyini, bu kontekstdə daxili işlər nazirlikləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

İclasda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin daxili işlər nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi, transmilli mütəşəkkil cinayətkarlıqla birgə mübarizə, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi sahəsində məlumat mübadiləsi, informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması üzrə əlaqəli fəaliyyət və təşkilatın daxili işlər orqanlarının rəqəmsallaşdırılması sahəsində əməkdaşlığın perspektivləri kimi məsələlər müzakirə edilib.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin daxili işlər nazirlərinin növbəti görüşünün Qazaxıstan Respublikasında keçirilməsi qərara alınıb.

Tədbirdə tərəflər Türk Dövlətləri Təşkilatı daxili işlər nazirlərinin ikinci görüşünə dair Birgə Kommünike sənədini imzalayıblar.




Çıxışlarda təşkilata üzv və müşahidəçi dövlətlərin daxili işlər nazirlərinin ikinci görüşünün türk xalqları və dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə növbəti təkan olacağına əminlik ifadə olunub, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tədbirə evsahibliyi etməsinə görə təşəkkür edilib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 24.05.2025 22:49 Page 1



## GENERAL-MAYOR FƏXRƏDDİN SƏMƏDOVUN 65 İLLİK YUBİLEYİ KEÇİRİLİB

Mayın 24-də daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədovu 65 illik yubileyi münasibətilə təbrik edib. Daxili qoşunların komandanı onun şərəfli hərbi xidmət yolu keçdiyini, qoşunların formalaşması və inkişafında təqdirəlayiq əməyinin olduğunu vurğulayıb.

Ümumilikdə, ömrünün 48 ilini hərbi xidmətə həsr edən, 1991-ci ilin dekabr ayından Daxili Qoşunların sıralarında şərəflə irəliləyən general-mayor F.Səmədovun zəngin bioqrafiyası onun xidmətləri, çoxşaxəli fəaliyyəti barədə dolğun təsəvvür yaradır.

1960-cı il mayın 24-də Xaçmaz şəhərində anadan olub. 1977-1981-ci illərdə SSRİ DİN-in Xarkov Ali Hərbi Arxa Cəbhə Məktəbində təhsil alıb.

1981-1991-ci illərdə SSRİ DİN-in Daxili Qoşunlarında ərzaq xidməti rəisinin köməkçisi, tabor komandirinin təchizat üzrə müavini, ərzaq xidmətinin rəisi, hərbi hissə komandirinin arxa cəbhə üzrə müavini vəzifələrində xidmət edib.

1991-2007-ci illərdə DİN-in Daxili Qoşunlarında hərbi hissə komandirinin arxa cəbhə üzrə müavini, Daxili Qoşunların Baş İdarəsində ərzaq xidmətinin rəisi, hərbi hissə komandirinin arxa cəbhə üzrə müavini, DQBİ-də arxa cəbhə rəisinin müavini-qərargah rəisi, hərbi hissə komandiri, DQBİ-nin maddi-texniki təminat idarəsində qərargah rəisi-idarə rəisinin müavini vəzifələrində xidmət edib.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 aprel tarixli müvafiq Sərəncamı ilə daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi vəzifəsinə təyin edilib.

Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmişdir. Xidməti fəaliyyətindəki uğurlu nəticələrinə görə müxtəlif mükafatlara layiq görülüb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsində, hərbi borcu, xidməti vəzifələrini, xüsusi tapşırıqları yerinə yetirərkən fərqləndiyinə, cəsarət göstərdiyinə görə Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2005-ci il 6 may, habelə 2014-cü il 8 mart və 2025-ci il 11 mart tarixli müvafiq sərəncamlara əsasən, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə, eləcə də "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilib.

Azərbaycan Respublikası Prezidentinin 12 mart 2009-cu il tarixli müvafiq Sərəncamı ilə "general-mayor" ali hərbi rütbəsi verilib.



Mayın 24-də Daxili Qoşunların Baş İdarəsində general-mayor F.Səmədovun yubileyi münasibətilə mərasim keçirilib.

Daxili qoşunların komandanı general-mayor F.Səmədovun keçdiyi xidmət yolunu yüksək qiymətləndirib. O, general-mayor F.Səmədovun həmişə dövlətçiliyimizə sadiq olduğunu, tutduğu məsul vəzifələrdə bilik və təcrübəsindən bəhrələnərək, əzmlə çalışdığını vurğulayıb, onun bir sıra fərdi keyfiyyətlərini örnək olaraq göstərib.

Daxili qoşunların komandanı general-mayor F.Səmədova uzun ömür, cansağlığı arzulayaraq, xidmətində uğurlar diləyib.

Komandanlıq adından general-mayor F.Səmədova hədiyyə təqdim olunub.

General-mayor F.Səmədov da öz növbəsində onun fəaliyyətinə verilən yüksək qiymətə, şəxsinə göstərilən diqqət və qayğıya görə Respublika Prezidentinə, Daxili İşlər Nazirliyinin rəhbərliyinə və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanına dərin minnətdarlığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## ƏSASLI TƏMİRDƏN SONRA YATAQXANA HƏRBİ QULLUQÇULARIN İSTİFADƏSİNƏ VERİLİB

Daxili Qoşunların şəxsi heyətinin sosial-məişət şəraitinin müasir standartlara uyğun yaxşılaşdırılması, mövcud infrastrukturun yenilənməsi və inkişafı istiqamətlərində çoxşaxəli tədbirlər həyata keçirilir. Bu məsələ Daxili İşlər Nazirliyinin rəhbərliyinin və Daxili Qoşunların komandanlığının xüsusi diqqət mərkəzində saxlanılır.



Məlumdur ki, istər ailəli, istərsə də subay hərbi qulluqçuların üzləşdikləri aktual problemlərdən biri mənzil məsələsidir. Hərbi hissələrimizdə inşa olunaraq istifadəyə verilən çoxmənzilli yataqxanalar sözügedən problemin müəyyən dərəcədə aradan qaldırılmasına şərait yaradır.

Mayın 27-də 25031 saylı hərbi hissənin ərazisində əsaslı təmir edilərək istifadəyə verilən yataqxananın açılışı olub. Belə ki, əvvəl mövcud olmuş 5 mərtəbəli 35 mənzilli yataqxana yenidən qurularaq müasir yataqxana binasına çevrilib. Bina 60 mənzildən ibarətdir, mənzillərin 52-si ikiotaqlı, 8-i isə üçotaqlıdır, bundan əlavə, mətbəx və hamam otaqları da yaradılıb. Mənzillər zəruri mebel və məişət avadanlıqları ilə təchiz edilib. Yataqxanada fərdi istilik sistemləri, yanğınsöndürmə vasitələri, qaz, su və işıq sayğacları quraşdırılıb. Rahat şəraitə malik yataqxana Daxili Qoşunların Bakı qarnizonunda yerləşən hərbi hissələrinin zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçularının yaşayışı üçün nəzərdə tutulub.



Açılış mərasimində iştirak edən daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov yataqxananın istifadəyə verilməsi münasibətilə şəxsi heyətə komandanlığın təbrikini çatdırıb. O, qoşunlarda aparılan quruculuq işlərinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçularımıza diqqət və qayğısının təzahürü olduğunu xüsusi vurğulayıb. Komandan müavini daxili işlər nazirinin və daxili qoşunların komandanının rəhbərliyi altında görülən işlər nəticəsində hərbi hissələrdə müasir tələblərə cavab verən xidmət və məişət şəraitinin yaradıldığını bildirib. General-mayor F.Səmədov belə tədbirlərin xoş ovqat yaratdığını deyərək, yataqxanaya köçürülən hərbi qulluqçulara xidməti fəaliyyətlərində uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıb.

Yataqxanada mənzillə təmin olunan hərbi qulluqçular onlara göstərilən qayğıya və yaradılan şəraitə görə komandanlığa dərin minnətdarlıqlarını ifadə ediblər.

Mərasimin sonunda xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARIN VETERANLARI DİQQƏT MƏRKƏZİNDƏDİR

Mayın 13-də daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov Daxili Qoşunların veteranı, ehtiyatda olan mayor Aisə Balammədovanı 70 illik yubileyi münasibətilə təbrik edib. Yubilyarı və Daxili Qoşunların Veteranlar şurasının sədri Şirin Xəlilovu Daxili Qoşunların Baş İdarəsində qəbul edən general-mayor İ.Muradov onun şərəfli hərbi xidmət yolu keçdiyini, qoşunların inkişafında təqdirəlayiq əməyinin olduğunu vurğulayıb.

Qeyd olunub ki, A.Balammədova üzərinə düşən xidməti vəzifələrin yerinə yetirilməsində əzmkarlıq göstərib. O, təyin olunduğu vəzifələrdə, komandanlıq tərəfindən göstərilən etimadı layiqli xidmətilə doğruldub. Təcrübəli və səriştəli hərbi qulluqçu olaraq şəxsi heyətə nümunə olub.

Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi A.Balammədovanın hərbi xidmət müddətində bir çox mükafatlara layiq görüldüyünü xatırladaraq, bunun veterana daxili işlər nazirinin və daxili qoşunların komandanlığının diqqət və qayğısının təzahürü olduğunu nəzərə çatdırıb.




General-mayor İ.Muradov veteranların qoşunların şəxsi heyətilə təmaslarının qorunub saxlanmasının vacibliyini, onların təcrübəsindən təlim-tərbiyə prosesində məqsədyönlü istifadə olunmasının zəruriliyini, veteran həmrəyliyinin möhkəmləndirilməsinin əhəmiyyətini xüsusi qeyd edib.

O, A.Balammədovanı 70 illik yubileyi münasibətilə təbrik edərək, dövlətçiliyimizə sədaqətinə, Daxili Qoşunların veteranı adını uca tutmasına görə minnətdarlığını bildirib, hörmətli veterana möhkəm cansağlığı, ailə səadəti və işlərində uğurlar arzulayıb.

Görüşdə xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

## DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİM UĞURLA BAŞA ÇATIB

"2025-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"nın tələblərinə uyğun olaraq, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, may ayının 5-dən 9-dək "Goran" Təlim mərkəzində 16077, 16073 və 17074 saylı hərbi hissələrin minaatan batareyalarının şəxsi heyəti ilə döyüş atışlı taktiki təlim keçirilib.

İlk olaraq, təlimin təşkili və keçirilməsi üçün Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsi tərəfindən planlaşdırıcı və təlim sənədləri hazırlanıb. Təlimin iştirakçılarına tədbirin planı və məqsədi, təhlükəsizlik qaydaları izah olunub, şəxsi heyətin, artilleriya qurğularının, müşahidə və kəşfiyyat cihazlarının, eləcə də digər maddi vasitələrinin hazırlığına baxış keçirilib.

Təlimlərin keçirilməsi müddətində öyrədilənlərə atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, atəş mövqeyinin və komanda müşahidə məntəqəsinin yerdəyişməsi, yeni atəş mövqeyindən atışların aparılması, həmçinin komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi, döyüş əmrinin hazırlanması, artilleriya xətkeşlərinin və ərazinin xəritəsindən istifadə edərək, eləcə də analitik üsulla hədəfləri müəyyən etməklə atışların icrası, artilleriya atışı və atəşinin idarə olunması, atışa xidmət tapşırıqlarının icrası üzrə biliklər aşılanıb. Şəxsi heyətlə ixtisas və taktiki hazırlıq üzrə nəzarət məşğələləri keçirildikdən sonra normativlər yerinə yetirilməklə praktiki fəaliyyətləri məşq etdirilib.

Bundan əlavə, təlimə cəlb olunan hərbi qulluqçularla "Artilleriya hazırlığı və atış kursu"nun tələblərinə uyğun olaraq, minaatan batareyalar ştat üzrə artilleriya silahlarından yarımdüzünə tuşlamaqla, eləcə də müşahidə olunan və olunmayan hədəfləri örtülü atəş mövqeyindən tələfata uğratma tapşırıqlarını yerinə yetiriblər.



Qeyd edək ki, taktiki təlimin keçirilməsi zamanı batareya komandirləri şəxsi heyətin daha da yüksək nəticələr əldə etmələri üçün əzmkarlıq göstərib, yaxşı nəticələr üçün çalışıblar. Bunun nəticəsi olaraq praktiki atışlar zamanı əksər hallarda heyətlər tərəfindən hədəf ilk sınaq atışından sonra vurulub, təhlükəsizlik qaydalarının pozulması və xəsarətalma hallarına yol verilməyib.

Keçirilən təlimlərdə 16077 saylı hərbi hissənin minaatan batareyasının kəşfiyyat və idarəetmə taqımının komandiri leytenant Nihad Mahmudov, 17074 saylı hərbi hissənin kəşfiyyat və idarəetmə taqımının komandiri leytenant Rəşvin Məmmədzadə, minaatan taqımın komandiri leytenant Şamil Hüseynov xüsusi peşəkarlıq və əzmkarlıq nümayiş etdirərək, qarşıya qoyulan tapşırıqların icrası zamanı fərqləniblər.

Həmçinin minaatan batareyasının komandirinə, 16077 saylı hərbi hissənin və ayrı yerləşən xüsusi təyinatlı dəstənin hərbi qulluqçularına hədəfgöstərmə və atışa xidmət tapşırıqlarının icrası üzrə biliklərin, minaatan bölmələrinin fəaliyyətinin koordinasiyası və peşə hazırlığının təkmilləşdirilməsi məqsədi ilə əlavə məşğələlər təşkil edilib, atış tapşırıqları zamanı batareyaların atışlarının yönləndirilməsi praktik olaraq icra olunub.

Təşkilati məsələlərin həlli, şəxsi heyətin qidalanması, daxili xidmətin təşkili, praktiki atışlar zamanı isə atəş sahəsinin mühafizəsi, tibbi təminatı uğurla həyata keçirilib. Təlimdə xüsusilə fərqlənən və "əla" qiymətlər alan hərbi qulluqçular mükafatlandırılıblar.

**kapitan Xədicə Hacızadə**

## XÜSUSİ TƏYİNATLI DƏSTƏLƏRİN SNAYPERLƏRİ ARASINDA YARIŞ KEÇİRİLİB

2025-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planının, eləcə də daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Xüsusi təyinatlı bölmələrin snayperləri arasında yarışların təşkili və keçirilməsi haqqında" müvafiq əmrinin tələblərinə əsasən xüsusi təyinatlı dəstələrin snayperləri arasında yarış təşkil olunub.





Yarışda Daxili Qoşunların 99713, 67987, 16075, 25033, 12318, 16077, 17071, 17072, 12565, 16073, 17074 saylı hərbi hissələrinin və 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin snayperləri olmaqla, ümumilikdə 24 nəfər hərbi qulluqçu iştirak edib.

Yarışlar zamanı snayperlərin atıcılıq vərdişləri və hazırlıqları yoxlanılıb. Yarışın ümumi nəticələrinə görə, 12318, 12565 saylı hərbi hissələrin və 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin komandaları daha yüksək nəticələr əldə ediblər.

Hərbi hissələr arasında yerlər isə aşağıdakı kimi olub:

I yer - 12318 saylı hərbi hissə;
II yer - 12565 saylı hərbi hissə;
III yer - 16077 saylı hərbi hissə.

Yarışın nəticələrin görə 1-ci yeri tutmuş komanda "Kubok"la, 2-ci və 3-cü yerləri tutmuş komandalar isə "Diplom"la təltif ediliblər.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 24.05.2025 18:09 Page 1



# 28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR



Azərbaycanda milli bayram olan 28 May - Müstəqillik Günü qeyd olunub.

107 il əvvəl Şərqdə ilk demokratik respublika qurulub.

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulması 28 may 1918-ci ildə Tiflis şəhərində Qafqaz canişininin binasında Məhəmməd Əmin Rəsulzadənin sədri olduğu Azərbaycan Milli Şurası tərəfindən bəyan edilib.

Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi:

"Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir;

Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir;

Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir;

Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir;

Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır;

Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur".

Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın müstəqilliyinə dair Batumidə Osmanlı imperiyası ilə danışıqlar apardığından, İstiqlal Bəyannaməsinin elan olunduğu iclasa Azərbaycan Milli Şurasının sədr müavini Həsən bəy Ağayev sədrlik edib. Mustafa Mahmudovun katib olduğu iclasa Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mirhidayət Seyidov, Heybətqulu Məmmədbəyov, Nərimanbəy Nərimanbəyli (bolşevik Nəriman Nərimanov deyil - red.), Mehdi bəy Hacınski, Ələsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultanməcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Cəmo bəy Hacınski, Şəfibəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə qatılıblar.

Azərbaycan Milli Şurasının həmin iclasında bitərəf Fətəli Xan Xoyskinin rəhbərliyi ilə AXC-nin ilk müvəqqəti hökumətinin tərkibi də təsdiqlənib.

İlk hökumətin tərkibi belə idi: Fətəlixan Xoyski - Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrov Paşa bəy Sultanov - hərbi nazir, Məmmədhəsən Hacınski - xarici işlər naziri, Nəsib bəy Yusifbəyli - maliyyə naziri və xalq maarif naziri, Xəlil bəy Xasməmmədov - ədliyyə naziri, Məmmədyusif Cəfərov - ticarət və sənaye naziri, Əkbər Ağa Şeyxülislamov - əkinçilik naziri və əmək naziri, Xudadat bəy Məlik-Aslanov - yollar naziri və poçt-teleqraf naziri, Camo bəy Hacınski - dövlət nəzarətçisi.

AXC elan olunarkən Bakı Stepan Şaumyanın başçılığı altında bolşevik-daşnak birləşmələrinin nəzarəti altında olduğundan, Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncə şəhərində fəaliyyət göstərib. 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra AXC milli ordusunun və Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun hissələri Bakını bolşevik-daşnak və ingilis hərbi dəstələrindən azad edib. Bundan sonra Azərbaycan hökuməti Bakıya köçüb.

1918-ci il dekabrın 7-i saat 13:00-da Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binasında (hazırda AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan parlamentinin təntənəli açılışı olub. Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə geniş təbrik nitqi söyləyib.

Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçilib. Əlimərdan bəy Topçubaşov Paris sülh konfransında olduğundan, parlamentə Həsənbəy Ağayev rəhbərlik edib. Parlamentin ilk iclasında Fətəli Xan Xoyski hökumətinin istefası qəbul edilib və yeni hökumətin təşkil olunması qərara alınıb. Yeni hökumətin təşkili yenidən Xoyskiyə tapşırılıb.

AXC-nin mövcud olduğu dövrdə parlamentin ümumilikdə 155 iclası keçirilib. Bunun 10-u Azərbaycan Milli Şurasının (27 may - 19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan parlamentinin fəaliyyət göstərdiyi dövrə (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il) aiddir.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılıb, onlardan 230-a yaxını qəbul olunub. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edib. Parlamentdə 11 komissiya olub.

AXC qısa ömründə böyük nailiyyətlər əldə edib. İlk dəfə qadınlara seçim hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən cümhuriyyət, milli ordu quruculuğu, milli valyutanın buraxılması, milli bankın yaradılması, demokratikləşmə, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının rəsmən tanınması, Azərbaycanın bütövlüyünün təmin olunması, iqtisadi islahatların aparılması və digər sahələrdə böyük işlər görüb. Təəssüf ki, cəmi 23 ay yaşayan AXC 1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində devrilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 15 oktyabr 2021-ci il tarixdə təsdiqlədiyi "Müstəqillik Günü haqqında" Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü elan edilib. Bu tarixə qədər 28 may Respublika Günü kimi qeyd olunub.

**Mətbuat xidməti**

## KOMENDANT BÖLÜYÜ DÖYÜŞ XİDMƏTİNİN VƏ HƏRBİ İNTİZAMIN YEKUNLARINA GÖRƏ FƏRQLƏNİR

17071 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bu baxımdan bölük komandiri kapitan Rəyasət Əliyevin zəhmətini xüsusilə vurğulamaq gərəkdir. Hərbi qulluqçu 2011-ci ilin iyul ayından Daxili Qoşunların sıralarındadır. 67987, 16077 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2022-ci ilin may ayından hazırkı vəzifədədir.



Bölük komandiri bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirir: "Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlığı, mənəvi-psixoloji durumu xüsusilə nəzarətdə saxlanılır".



Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamələrin maddələri onlara çatdırılır. Ümumiyyətlə xidmətə cəlb edilən hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur, asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılmasına diqqət yetirilir.

Kapitan R.Əliyev əlavə etdi ki, keçirilən təlim və məşğələlərdə əldə olunan nəzəri biliklərin nəticəsidir ki,



şəxsi heyət xidmət apararkən daha ayıq-sayıq, çevikdir, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir. Komandir onu da söylədi ki, bölük döyüş xidmətinin və hərbi intizamın yekunlarına görə hərbi hissənin bölmələri arasında fərqlənir.

Komandir layiqli xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan leytenant Vüqar Həsənlinin, gizir Elmir Nəsrullayevin, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından əsgərlər Saleh Ağamalıyevin, Əli Məmmədovun, Həsənağa Abbasovun, Faid Bədəlovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

## ŞƏXSİ HEYƏTİN DÖYÜŞ RUHUNU YÜKSƏLDƏN HƏRBİ ORKESTR

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının təşkilində, şəxsi heyətə vətənpərvərlik aqidəsinin, mədəni-estetik dünyagörüşünün aşılanmasında Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin xüsusi rolu var. Belə ki, rəsmi mərasimlərin, əlamətdar günlər münasibətilə tədbirlərin keçirilməsini orkestrsiz təsəvvür etmək çətindir. Repertuarında hərbi marşların, vətənpərvərlik ruhunda mahnıların üstünlük təşkil etdiyi hərbi orkestr zəngin yaradıcılıq potensialına və geniş fəaliyyət təcrübəsinə malikdir.

1994-cü il noyabrın 17-də yaradılmış Nümunəvi göstərici hərbi orkestr fəaliyyət göstərdiyi ötən dövrdə, sözün əsl mənasında, nümunəvi olduğunu sübut edib. Yarandığı gündən Daxili Qoşunlarla birgə addımlayan, istər çətin, istərsə də əlamətdar və sevincli günlərdə şəxsi heyətin döyüş ruhunun yüksəldilməsini özünə şərəf borcu bilən orkestrin kollektivi milli musiqi ənənələrimizə, vətənpərvərlik əqidəsinə hər zaman sadiqdir.

Deyərdim ki, mövcud olduğu 31 il ərzində orkestrin repertuarı rəngarəngliyini qoruyaraq, janr baxımından ilbeil zənginləşdirilib.

Kapitan Mail Mailov hazırda orkestrin rəisidir. O, 2021-ci ildən bu vəzifədədir. Orkestrin nəzdində mahnı ansamblı fəaliyyət göstərir. Orkestr rəisinin müavini baş leytenant Elşad Cəfərovdur.

Orkestrin rəisi bildirdi ki, musiqiçilərin istifadə etdikləri saz, tar, qarmon, balaban, klarnet, truba, saksafon alt, saksafon tenor, bariton, trombon, tuba, böyük və kiçik təbil, nağara, valtorna, piatti, sintizator, eləcə də digər musiqi alətləri geniş konsert proqramlarının təşkilinə, ifaçılıq potensialının gücləndirilməsinə imkan verir: "Azərbaycan Respublikasının Əməkdar artisti mayor Zaur Əmiraslanov orkestrin hərbi dirijoru, Azərbaycan Respublikasının Əməkdar artisti gizir Vəsilə İbrahimova, digər gizirlər Nuranə Mailova, Amin Təhməzov orkestrdə konsertmeystr, işçi Amil Məmmədov, Aygün Mahmudova isə mahnı ansamblının solistləridir. İfaçılıq dəst-xətti ilə fərqlənən orkestrin repertuarına dünya ölkələrinin məşhur bəstəkarlarının, eləcə də Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Tofiq Quliyev kimi görkəmli Azərbaycan bəstəkarlarının əsərləri, xalq mahnıları daxil edilib".



Kapitan M.Mailov əlavə etdi ki, orkestrin repertuarında müxtəlif janrda musiqilər səsləndirilir, lakin milli ruhlu marşlar və vətənpərvər mahnılara xüsusi üstünlük verilir.

Kollektiv indiyədək rəsmi tədbirlərdə, müxtəlif idarə və təşkilatlarda, mədəniyyət ocaqlarında, ölkənin televiziya kanallarında uğurlu çıxışlar edib. Daxili Qoşunların Hərbi İnstitutunda kursantların, hərbi hissələrdə xidmətə qəbul olunmuş çağırışçıların andiçmə mərasimlərində də orkestrin kollektivi iştirak edir. Həmçinin onlar tərəfindən təşkil edilən konsert proqramları şəxsi heyətin əhval-ruhiyyəsini yüksəldir, vətənpərvərlik hissini gücləndirir, musiqiyə marağını artırır.

Bu gün orkestrin normal fəaliyyəti üçün lazımi şərait mövcuddur. Texniki avadanlıqlar, musiqi alətləri, səsgücləndiricilər saz vəziyyətdə saxlanılır. Yaradılmış hərtərəfli şəraitin daxili işlər naziri və daxili qoşunların komandanı tərəfindən göstərilən xüsusi diqqət və qayğının təzahürü olduğunu vurğulayan orkestr rəisi kollektivin öz peşəkarlığını artırmaq, Daxili Qoşunların adını hər zaman ucaltmaq üçün bundan sonra da əzmlə çalışacağına söz verdi.

**kapitan Nigar Ağayeva**

4_Layout 1 24.05.2025 22:48 Page 1



## ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI HƏR ZAMAN NƏZARƏTDƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

17071 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Tibb xidmətinin rəisi tibb xidməti kapitanı Elçin Seyidov şəxsi heyətin tibbi təminatını həyata keçirir, bu istiqamətdə lazımi tədbirlərin həyata görülməsinə cavabdehlik daşıyır. 2015-ci ildən Daxili Qoşunların sıralarındadır. 17072 saylı hərbi hissədə xidmət edib, verilən tapşırıqların öhdəsindən layiqincə gəlib. 2020-ci ilin may ayından hazırkı vəzifədədir. Nümunəvi, intizamlı hərbi qulluqçudur.

Tibb xidməti kapitanı E.Seyidov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə müvafiq tapşırıqlar verilir.



Bundan əlavə, hərbi qulluqçuların sağlamlıqlarının qorunması davamlı olaraq nəzarətdə saxlanılır, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunurlar. Hərbi hissədə sanitar-gigiyenik vəziyyətin qənaət-bəxş olmasına, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına diqqət yetirilir.

Xidmət rəisi tibb məntəqəsinin rəisi tibb xidməti leytenantı İlkin Nəsirov və tibb məntəqəsinin feldşeri gizir Fərid Əlizadənin bacarıqlı və savadlı hərbi qulluqçular olduqlarını bildirdi. Onların funksional vəzifələrini məsuliyyətlə icra etdiklərini söylədi.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XİDMƏTDƏ KEYFİYYƏTLİ QİDALANMA ƏSAS AMİLLƏRDƏN BİRİDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, keyfiyyətli qidalanmadan da asılıdır.



67987 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Şəhriyar Niftəliyev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan yeməklərin hazırlanmasında sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Kapitan Ş.Niftəliyev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri rasiona daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətə soğan, sarımsaq kimi faydalı tərəvəzlər verilir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil edildiyini bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Xidmət rəisi görülən işlərdə yeməkxana rəisi baş çavuş Əbülfəz Cəlilovun əməyini xüsusi olaraq vurğuladı. Qarşıya qoyulan tapşırıqların icrasına, qidaların tələb olunan keyfiyyətdə hazırlanmasına, gigiyena qaydalarına ciddi əməl olunmasına şəxsən nəzarət etdiyini sözlərinə əlavə etdi. Onun aşpazların bölünməsinə, yeməkxana növbətçisinin fəaliyyətinə nəzarət etdiyini deyən zabit, o cümlədən işğaldan azad olunmuş ərazilərdə xidmət zamanı səhra mətbəxində yeməklərin hazırlanması və nəql edilməsində təşəbbüskarlıq göstərdiyini söylədi.



Həmçinin qidaların tələb olunan səviyyədə, keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı, işçi - aşpazlardan Günay İbrahimxəlilova, Elmira Yolçuyeva, Aminə Nəcəfova, Sevinc Abdullayeva və Gülşən Əliyevanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Nigar Ağayeva**

## NARKOMANİYA BƏŞƏRİYYƏTİN FACİƏSİDİR

Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkotik "narke" sözündən götürülüb yunan dilindən tərcümədə mənası yuxu, bihuşluq, "mania" cəzbetmə, ağılsızlıq deməkdir. Narkotik maddələr öncə tibbdə istifadə olunmağa başlamışdır.

Narkomanlıq – xroniki intoksikasiya doğuran, narkotik və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranan, psixi və fiziki asılılıqla müşayiət olunan xəstəlikdir. Narkomaniya xəstələrində narkotiklərin qəbulunun dayandırılması və ya dozanın azaldılmasından bir müddət sonra inkişaf edən fiziki və psixi pozulmalar abstinent sindromuna gətirib çıxardır. Narkotiklərə alışmış orqanizmin abstinent sindrom zamanı yaranan ağrı hisslərindən azad olmaq arzusu o dərəcədə güclüdür ki, bu zaman narkotik əldə etmək xatirinə insan yalana, oğurluğa hətta adam öldürməyə də əl ata bilər. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə dünyada 16 milyona yaxın insan inyeksion narkotiklərdən istifadə edir, onların da 3 milyonunda Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) xəstəliyi vardır. Azərbaycanda da rəsmi statistikaya görə son beş ildə narkomanların sayı 10 dəfəyədək artıb.

Narkotiklərin müxtəlif növləri var: Psixostimulyatorlar - mərkəzi sinir sistemini



stimullaşdıran maddələrdir. Buraya kokain, marixuana, qurudulmuş və xırdalanmış çətənə yarpaqları, həşiş və çətənə qətranı da aiddir.

İnqalyantlar - nəfəs yolları ilə orqanizmə daxil edilən maddələrdir. Bunlar yapışqan (kley), benzin, aseton və sair toksiki maddələrdir.

Opiatlar - morfin və kodein, morfindən isə sintetik yolla heroin alınır.

Azərbaycanda daha geniş istifadə olunan narkotiklər tiryək, heroin, çətənə, həşiş, ekstazi, kokain və LSD-dir.

Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün düşməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qaraciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur.

Narkomanlar arasında ən geniş yayılmış xəstəlik hepatitdir. Narkotik maddələrdən asılılıq narkomaniyaya düçar olmuş şəxslər arasında İİV/QİÇS virusuna yoluxma hallarını artırır. Bunun narkomanlar arasında yayılmasına ən çox narkotik maddənin hazırlanması üçün lazım olan iynə, şpris və ya digər yoluxmuş alətlərin birgə istifadəsidir.

Maraq, stress, kənar təzyiqlər, psixi asılılıq narkotik qəbulunun əsas səbəbləridir. Ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, ishal, qastrit, xora, qaraciyər və böyrəklərdə böyük qəza və tıxanmalar, qaraciyər çatışmazlığı, piylənmə, sərtləşmə (sirroz), qan və sidik çoxalması, ağır böyrək xəstəlikləri, gözlərdə işıq və məsafədə uyğunsuzluq, çəplik, gecə korluğu, gözbəbəyi böyüməsi, kiçilməsi, göz adele iflici, nəfəs darlığı, öskürək, boğulma hissi, tənəffüs iflici, qansızlıq, qan zəhərlənmələri, qan hüceyrələrində şəkil və miqdar dəyişiklikləri, qanın laxtalanması və qanqrenalar narkomaniyanın fəsadlarıdır.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Bu prosesdə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət, hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, barışmaz münasibətinə və əməli köməyinə böyük ehtiyac vardır.

*İdman*

## İDMAN UĞURLARIMIZ

"2025-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmrinə əsasən mayın 17-də 16075 saylı hərbi hissədə qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib. Yarışda Hərbi İnstitut, 99713, 67987, 16076 və 25031 saylı hərbi hissələrdən 5 komanda olmaqla 35 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**55 kq çəki dərəcəsində**

I yer - kursant Vüsal Miriyev (Hərbi İnstitut);

II yer - kursant Əvəz İbrahimov (Hərbi İnstitut).

**60 kq çəki dərəcəsində**

I yer - kursant Pərvin Əlirzayev (Hərbi İnstitut);

II yer - əsgər Altun Məmmədov (16076 saylı hərbi hissə);

III yer - əsgər Məmmədağa Məmmədov (16076 saylı hərbi hissə).

**66 kq çəki dərəcəsində**

I yer - kursant Zeynal Zeynalzadə (Hərbi İnstitut);

II yer - kursant Mirvaqif Mustafazadə (Hərbi İnstitut);

III yer - əsgər Süleyman Hüseyinli (16076 saylı hərbi hissə).

**74 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Əhməd Bağırov (67987 saylı hərbi hissə);

II yer - MAXE çavuş İlkin Səlvərov (67987 saylı hərbi hissə);

III yer - kursant Abbas Ceyranov (Hərbi İnstitut).

**84 kq çəki dərəcəsində**

I yer - leytenant İbad Allahquluzadə (67987 saylı hərbi hissə);

II yer - gizir Kənan Mirzəzadə (67987 saylı hərbi hissə);

III yer - MAXE çavuş Razim Şahverdiyev (99713 saylı hərbi hissə).

**96 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Tahir Əmraslanov (99713 saylı hərbi hissə);

II yer - MAXE çavuş Məmməd Mustafayev (99713 saylı hərbi hissə);

III yer - MAXE çavuş Ramil Muradxanov (67987 saylı hərbi hissə).

**+ 100 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Vüqar Həsənov (67987 saylı hərbi hissə);

II yer - MAXE çavuş Amir Muradxanov (99713 saylı hərbi hissə);

III yer - gizir Qoçəli Tərlanov (67987 saylı hərbi hissə).

Komanda üzrə 67987 saylı hərbi hissə ilk pillədə qərarlaşıb. Hərbi İnstitut və 99713 saylı hərbi hissələr isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər. Birinciliyi yarışlarının nəticələrinə görə ilk üçlüyə düşən komandalar "Kubok" və "Diplom"la təltif olunublar.

**kapitan Nigar Ağayeva**

NÜMUNƏVİ XİDMƏT

## İNTİZAMLI BAŞ HEYVAN TƏLİMÇİSİ

Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsinin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından olan baş əsgər İmaməddin Şükürəmirli 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmətdədir. O, 1994-cü il iyulun 28-də İmişli rayonunun Qaragüvəndikli kəndində anadan olub. 2000-2011-ci illərdə doğma kəndində yerləşən Şahin Məmmədov adına tam orta məktəbdə təhsil alıb. 2012-ci il iyulun 12-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli rayon şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edib.



Hazırda Xidməti itlərin yetişdirmə məntəqəsinin xidməti itləri yetişdirmə manqasının baş heyvan təlimçisi vəzifəsindədir. Baş əsgər İ.Şükürəmirli daim öz üzərində çalışan, özünə qarşı tələbkar, hərbi anda sadiq qalan hərbi qulluqçularımızdandır. Xidmətə ciddi münasibətilə seçilir.

İstənilən vaxt məntəqə rəisi tərəfindən verilən tapşırıqların icrasında sayıqlıq göstərir, dərhal və keyfiyyətlə yerinə yetirməyə çalışır. Özünün dediyinə görə, hələ məktəb illərindən hərbi xidmətə, heyvanlara xüsusi marağı olub. Xüsusən də itləri insanların ən sadiq köməkçisi kimi görən İmaməddin onlara nəvazişlə yanaşmağın vacibliyini nəzərimizə çatdırdı. Funksional vəzifələrinin icrasına hər zaman məsuliyyətlə yanaşan baş heyvan təlimçisi Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi-müəllim mayor Pərviz Əliyev tərəfindən müsbət xarakterizə olunur.

Heyvanlara təlim keçmək üçün kifayət qədər hazırlıqlı olan baş əsgər İ.Şükürəmirli itlərin instinktinin güclü olduğunu və onlara səbrlə, təmkinlə yanaşmağın vacibliyini qeyd etdi: "Hər bir heyvanın xüsusi qulluğa, nəvazişə ehtiyacı var. İnsanların mərhəmətinə sığınan itlərlə təlim keçərkən ilkin şərtlərdən biri sevgi, səbr və qayğıdır. Bu şərtlər olmadan heç bir uğurdan söhbət gedə bilməz".

**kapitan Nigar Ağayeva**

## "RABİTƏ ƏLAQƏSİNİN DAVAMLILIĞI ƏSAS TƏLƏBLƏRDƏNDİR"

17071 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən müddətli hərbi qulluqçularından biri əsgər Tural Allahverdilidir. O, 1999-cu ilin aprel ayının 18-də Bakı şəhərində anadan olub. 2016-cı ildə Xətai rayonundakı 254 saylı tam orta məktəbi bitirib. 2016-2020-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinə Maliyyə ixtisası üzrə ali təhsil alıb. 2022-2024-cü illərdə isə həmin universitetin İqtisadiyyat ixtisası üzrə magistr dərəcəsində ali təhsilini tamamlayıb.



2024-cü ilin iyul ayından müddətli həqiqi hərbi xidmətə başlayıb. Hərbi qulluqçu 25032 saylı hərbi hissənin kiçik mütəxəssis hazırlayan bölməsində rabitəçi kursunu keçdikdən sonra xidmətini davam etdirmək üçün 17071 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının manqa komandiri vəzifəsinə təyin edilib.

Əsgər T.Allahverdili xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və xidməti onlara uyğun təşkil edir. Yoldaşları arasında nüfuza malikdir, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

Rabitə növbətçisi kimi xidmətə cəlb olunan hərbi qulluqçu bildirdi ki, əsas tələblər gün ərzində rabitə əlaqəsinin davamlılığını təmin etməkdir. Bunun üçün gündəlik olaraq Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

**17071 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000